## *XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI*

UOT 372.881.111.1

***Firuzə Ədalət qızı Rzayeva,***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dillər Universiteti*

# İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ TƏLƏBƏLƏRİN MÜSTƏQİL İŞLƏRİNİN TƏŞKİLİNDƏ İKT VƏ MULTİMEDİA VASİTƏLƏRİNDƏN İSTİFADƏ

***Фируза Адалят гызы Рзаева,***
*доктор философии по педагогике, доцент*
*Азербайджанский Университет Языков*

# ИСПОЛЬЗОВАНИЕ СРЕДСТВ МУЛЬТИМЕДИА И ИКТ ПРИ ОРГАНИЗАЦИИ САМОСТОЯТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ СТУДЕНТОВ ПРИ ОБУЧЕНИИ АНГЛИЙСКОМУ ЯЗЫКУ

***Firuza Adalat Rzayeva,***
*doctor of philosophy in pedagogy, associate professor*
*Azerbaijan University of Languages*

# THE USE OF MULTIMEDIA AND ICT IN ORGANIZATION OF INDEPENDENT WORK OF STUDENTS IN TEACHING ENGLISH

**Xülasə.** İngilis dilinin tədrisində tələbələrin müstəqil işlərinin təşkilində İKT və multimedia vasitələrindən istifadənin müxtəlif üsul və vasitələr var. Rəqəmsal dünyanın iştirakçıları sayılan bu günkü tələbələr artıq elektron cəmiyyətin üzvləridir və qlobal ünsiyyət vasitəsi kimi ingilis dilini daha çevik və asan şəkildə öyrənməyə cəhd göstərirlər. İngilis dilinin öyrənilməsində işin müstəqil təşkili kompüterlərin köməyi ilə daha səmərəlidir. Müəllimlər tələbələri passiv məlumat alıcılarından tədrisin fəal iştirakçılarına çevirmək üçün belə potensiala malik olan ən son texnologiyalardan istifadə etməlidirlər. Bu baxımdan ingilis dilinin tədrisində müstəqil işin təşkili zamanı İKT və multimedia vasitələrilə tətbiqlərinin axtarışı və öyrənilməsi əvəzedilməzdir.

***Açar sözlər:*** *müstəqil iş, təlim fəaliyyəti, multimedia, bilik və bacarıq*

**Резюме.** В настоящее время существуют различные методы и средства использования мультимедиа и ИКТ для организации самостоятельной деятельности учащихся при обучении английскому языку. Студенты в наше время как участники цифрового мира являются членами общества электронных приборов и пытаются выучить язык в легкой и быстрой форме как средство глобальной коммуникации. Организация самостоятельной деятельности при обучении английскому языку более целесообразно при помощи компьютеров. Преподавателям следует использовать современные технологии для того, чтобы студенты из пассивных слушателей превратились в активных участников обучения. С этой точки зрения, исследования в сфере исследования средств мультимедиа и ИКТ для организации самостоятельной деятельности студентов при обучении английскому языку являются незаменимыми.

***Ключевые слова:*** *самостоятельная деятельность, учебная деятельность, мультимедиа, умение и навык*

**Summary.** At present, there are various ways and means of using ICT and multimedia in organization of individual work of students in teaching English. Nowadays students are being considered as participants of the digital world are members of the electron devices society and try to learn English as means of global communication in a much easier and quicker way.The organization of independent work in teaching English

is more useful with the help of computers. Teachers should use the latest technology with these potentials to change students from passive recievers of information to active participants of traning. İn this regard, research and study of using means of multimedia and ICT in organization of independent work of students in teaching English is indispensable.

***Key words:*** *independent work, training , multimedia, skill and habit*

"XXI əsr kompüter əsridir, dövrümüz isə texnologiyalar dövrüdür." kimi cümlələrə gündəlik həyatda tez-tez rast gəlinir. Çünki artıq kompüterin tətbiq olunmadığı bir sahə tapmaq qeyri mümkündür. Kompüterdən tibdə, mühəndislikdə və bir çox başqa sahələrdə geniş istifadə olunur. Artıq 21-ci əsrdə savadlılıq anlayışı öz mənasını genişləndirmişdir. Keçən əsrlərdə savadlılıq yazmaq və oxumaq bacarıqları ilə sərhədlənirdisə, indi artıq ona minimal kompüter biliklərinə sahib olmaq da əlavə olunub. Gündəlik həyatımızda biz kompüterlərdən müxtəlif məqsədlər üçün istifadə edirik, lakin bu zaman bizdən kompüteri mükəmməl bilmək tələb olunmur. Bizə yalnız minimal kompüter bilikləri gərəklidir. Buraya kompüterdə mətn yığmaq, e-poçt ünvanına daxil olmaq, gələn ismarıcları oxumaq, cavablandırmaq, veb-brauzerlərdə axtarış etmək və s. daxildir. Təbii ki, həyatımızın demək olar ki, hər bir sahəsinə tətbiq olunan kompüterlər, təhsil sahəsindən də yan keçə bilməzdi. Əgər dövr bizdən kompüter biliklərinə sahib olmağı tələb edirsə, bu ilk növbədə təhsildə öz əksini tapmalıdır. Kompüterin təhsilə cəlb olunması ilə kompüterlə dil tədrisi də təhsildə öz əksini tapdı və kompüterlə dil tədrisi və ya kompüterə əsaslanan xarici dilin tədrisi metodikasına gətirib çıxardı.

Yaşadığımız dövrdə demək olar ki, texnologiya artıq bütün sahələrə tətbiq olunur. Daim inkişaf edən texnologiyanın təhsil sahəsinə tətbiqi də ən önəmli məsələlərdən biridir və ingilis dilinin tədrisində də İKT və multimedia vasitələrindən istifadə olunması çox aktual bir mövzudur. Lakin bu gün də dil tədrisində İKT-dən istifadə edilməsi ilə bağlı öz həllini gözləyən bir çox məsələlər vardır. Bu məsələlərdən ən önəmlisi təlim fəaliyyəti zamanı müstəqil işlərinin təşkilində İKT və multimedia vasitələrindən istifadə edərək dilinin ünsiyyət vasitəsi kimi inkişaf etdirilməsidir. Bu səbəbdən də bu gün ingilis dilinin tədrisində müstəqil işin təşkili əsas hesab olunur. Təhsildə dilin ünsiyyət vasitəsi kimi tədris edilməsi ön plana çəkilir. Müasir ünsiyyətin ən yaxşı vasitəsi isə İKT-dən istifadədir. Demək olar ki, təlim prosesində artıq əksər müəllimlər İKT-lərdən məharətlə istifadə edirlər. Danılmaz faktdır ki, bu kimi vasitələrdən istifadə edilməzsə, yeni nəsli ənənəvi üsullarla keçilən dərslərə cəlb etmək çox çətin olar. Bu məsələlərin ən önəmli həlli yolu isə, dil dərslərini müasir texnologiyalarla zənginləşdirməkdir.

Öyrənənlər dərsi dinləyir və oxuyur, öz fikirlərini yazıb danışmaqla ifadə edirlər. Beləliklə, ünsiyyət zamanı dörd nitq bacarığından istifadə edilir: dinləmə, danışma, oxu, yazı. Şarma (Sharma ) qeyd edirdi ki, dinləmə və oxuma bacarığı insanları anlamaq, onlardan məlumat almaq üçündür. Danışma və yazma bacarığı isə düşündüklərimizi başqalarına çatdırmağa kömək edir. Dinləyərkən və danışarkən istifadə edilən söz və cümlələr səslərlə ifadə olunur. Ona görə də dinləmə və danışma şifahi nitqə aid olan bacarıqlardır. Hərflərlə ifadə olunmuş mətnləri isə oxuyuruq və ya yazırıq. Yazı və oxu bacarıqları yazılı nitqə aid edilir[8,səh. 80-88]. Hər bir nitq bacarığı özünəməxsus təhsil vasitəsinə malikdir. Texniki vasitələr 4 nitq bacarığının formalaşdırılmasında əhəmiyyətli rol oynayır.

Dinləmə zamanı danışanın necə çıxış etdiyini müəyyənləşdirmək mümkündür. Sarıkoban (Sarıcoban) vurğulayırdı ki, dinləmə natiqin vurğu və tələffüz şəklini, lüğət biliyini müəyyənləşdirir. Dinləmə əsas dil bacarığı hesab olunur. Dinləmə prosesində insanlar yeni məlumatlar, fikirlər, ideyalar əldə edirlər. Öyrənənin dil biliyinin inkişafında dinləmə prosesi mühüm rol oynayır [7, s. 77-88].

İngilis dili öyrənənlərin dinləmə qabiliyyətini inkişaf etdirmək üçün aşağıda bir neçə ümumiləşdirilmiş texniki yollar göstərilmişdir.

***Kompüterlərin istifadəsi.*** Hoven (Hoven) bildirirdi ki, kompüterlərin istifadəsi vizual və səsli şəkildə dinləmə bacarıqlarını inkişaf etdirməyə kömək edir . Dinləmə qabiliyyətini inkişaf etdirmək üçün kompüter vasitəsi ilə edilən tapşırıqları çox əhəmiyyətlidir. CD-ROM vasitəsilə filmlərdən öyrənmənin də mühüm üstünlükləri var. İnternetdə ikinci dil kimi istifadə edilən

səsli mesajlaşma şagirdlərin rahat ünsiyyət qurmasına kömək edir [12, s. 8-103].

***Rabitənin istifadəsi.*** Televiziya və radioda ingilis dilində yayımlanan verilişlərə qulaq asmaq anlama bacarığını inkişaf etdirməyin daha bir əlverişli yoludur. Daviz (Davies) bildirirdi ki, dinləyicilər proqram seçərkən diqqətli olmalıdırlar. Məsələn, BBC kimi televiziya kanalı audio ve video ilə zəngindir. Şagirdlər bu televiziya kanalından ingilis dilində maraqlı məlumatlar əldə etmək üçün istifadə edə bilərlər [10, s. 45-62].

***CD-Playerlərin istifadə.*** CD-player dinləmə bacarığını inkişaf etdirmək üçün müasir vasitələrdən biridir. CD-playerlər CD-Romları hərəkətə gətirmək üçün istifadə olunan elektronik vasitələrdir. Mühazirələr və dinləmə imtahanları bu vasitələr üzərində qurula bilər.

***Tap-recorderlərin istifadəsi.*** Tap-recorder ən qədim texniki dinləmə vasitələrindən biridir. Tap-recorderlərdən istifadə edənlərin sayı son zamanlar sürətlə azalır. Bu azalamaya baxmayaraq hələ də onlardan istifadə edilir və bir neçə ingilis dilində dərs kitabı Tap-recorder ilə əlaqələndirilib.

Danışıq şifahi nitqə aid olan nitq bacarığıdır. Öyrənənin ingilis dilində rahat ünsiyyət qura bilməsi üçün bu nitq bacarığını inkişaf etdirmək lazımdır. Bir çox texnoloji vasitələr danışma qabiliyyətini inkişaf etdirir. Hüseynzadə G. qeyd edirdi ki, internetdə səsli çatdan, səs sintezi proqramından istifadə nitqi formalaşdırmağa kömək edir [12, s. 23-33].

***Səsli çat proqramının istifadəsi.*** Çat internet vasitəsilə danışan ilə dinləyici arasında ünsiyyət yaradır. Çatda səsli şəkildə danışan şəxs xarici vətəndaş olarsa, bu proqram öyrənəni ingilis dilində danışa bilməsi üçün daha faydalı olar.

***Səs sintezi proqramının istifadəsi.*** Kompüterlər insan səslərini özlərində sintez edə bilir. Bu proqram süni intellekt kimi qiymətləndirilir və danışma qabiliyyətinin inkişaf etməsinə səbəb olur.

Oxu öyrənənin yazılı mətni anlaması prosesidir. Oxuma lüğət biliyindən asılı olan bir bacarıqdır. İngilis dilini öyrənən şagird oxuma prosesi zamanı öz lüğət biliyini inkişaf etdirə, yeni informasiyalar əldə edə və dünya görüşünü artıra bilər. Oxuma qabiliyyətini texnologiya vasitəsilə inkişaf etdirməyin bir neçə üsulları var.

***Kompüterlərin istifadəsi.*** Kompüter proqramları vasitəsilə ingilis dili dərsində asan və sadə mətnlərdən istifadə etmək onların oxumağa marağını artırır. Kompüter proqramlarında bu cür mətnlər lüğət biliyini artırmaq üçün istifadə olunur. Kompüterlər eyni anda bir neçə vəzifəni yerinə yetirə bilir. Kompüter proqramları imtahandan sonra öyrənənin cavablarını yoxlayır. Onların səhvləri olduqda onlara düzəliş edir [ 10, s. 12].

***Multimedianın istifadəsi.*** Multimedia mətn, qrafika, səs, video və animasiyanı istifadə edən kompüter proqramıdır. Multimedia lüğət və oxu bacarıqlarını inkişaf etdirmək üçün motivasiyanı artırır.

***İnternetdə vebsaytlardan istifadə.***. İngilis dili bacarıqlarını inkişaf etdirmək üçün internet ən müasir texnologiyadır. İngilis dili öyrənənlərin oxu qabiliyyətini inkişaf etdirmək üçün bir çox internet saytları var. İnternet vebsaytlarında qəzetlər, jurnallar, elektron kitabxanalar, lüğətlər, ensiklopediyalar və bülletenlər kimi çox sayda resurslar mövcuddur. Ybarra R., fikirlərinə görə, bu resurslar şagirdlərin söz bazasını artırmağa kömək edir [9, s. 77-87].

***Elektron lüğətlərin istifadəsi.*** Müasir təhsil formasında öyrənənlərin lüğət bazasını zənginləşdirmək üçün elektron lüğətlərdən istifadə edilməyə başlanıldı. Elektron lüğət dilin öyrənməsini sürətləndirən texnoloji üsuldur.

Yazma prosesi ingilis dili öyrənənlər üçün çətin ola bilər çünki bu proses ideya, yazı strukturu, mükəmməl şəkildə qrammatika və lüğət biliyi tələb edir. İngilis dilində yazı bacarıqlarını inkişaf etdirmək üçün aşağıda qeyd olunan bir neçə texniki üsullar var.

***Kompüterlərin istifadəsi.*** Kompüter ingilis dili öyrənən şagirdlərin yazı bacarıqlarını inkişaf etdirmək üçün istifadə olunur. Öyrənənlər öz fikirlərini kompüter vasitəsilə daha aydın ifadə edə bilirlər. Tələbələr kompüterdə bir sıra proqramların köməyi ilə qrammatik bacarıqlara yiyələnə bilirlər. Onlar kompüter vasitəsilə yazı işinin xüsusi hissəsini vurğulaya, qalınlaşdırma və ölçüsünü dəyişə bilirlər [2, s. 88-90].

***Elektron poçtdan istifadə.*** Elektron poçt mesajların internet vasitəsilə yazılması və göndərilməsi üçün müasir bir üsuldur. Sinqalın (Singhal) fikirlərinə görə e-poçt yazı qabiliyyə-

tini inkişafı üçün faydalı bir vasitədir. E-poçt sayəsində şagirdlər gələn mesajlara necə formal cavab verməyi öyrənirlər [11, s. 65-70].

Yazılı çat proqramının istifadəsi. Yazılı çat yazı qabiliyyətini inkişaf etdirmək üçün əhəmiyyətli üsuldur. Fikirlərini ifadə etmək, düşüncələrini ötürmək, gələn mesajlara anında cavab vermək üçün sürətli bir vasitədir. Texnologiya vasitəsi ilə axtarış etdikdə qrammatikaya aid materiallar, dərs planları və tapşırıqlar əldə edə etmək mümkündür. Kompüterlər, tabletlər ingilis dili tədrisində müxtəlif yaşlı şagirdlər üçün interaktiv və motivasiyaedici fəaliyyətlər təklif edən əsas texnoloji vasitələrdir. Müəllimlərin ingilis dilini öyrətmək üçün istifadə etdiyi 5 texnologiya üsulu dərsləri daha maraqlı edir.

İngilis dilinin tədrisində tələbələrin müstəqil işlərinin təşkilində İKT və multimedia vasitələrindən istifadənin müxtəlif üsul və vasitələr var.

***Film və Video.*** Müəllimlər ingilis dili dərsində qısa videolardan istifadə edərək onların müstəqil şəkildə lüğət biliyini artıra bilərlər. Həmçinin videolar onlara ingilis dilini praktiki şəkildə dinləməyə imkan verir. Öyrənənlər ingilis dilində qısa müddətli film və animasiyalar, reklamlar izləməklə dinləmə bacarığını inkişaf etdirə bilərlər. ESL Partyland saytından lüğət biliyini artırmaq üçün tapşırıq vərəqləri yükləmək mümkündür. Sayt həm şagirdlərin, həm tələbələrin maraqlandığı filmi müəyyən etmək üçün axtarış təklif edir. Bu axtarış sayəsində onlar istədikləri filmi ingiliscə izləyə bilərlər.

***İPAD proqramları.*** İPAD və tabletlərdəki proqramlar tələbələrə ingilis dilini əyləncəli şəkildə öyrənməyə kömək edir. Grammar Up kimi proqramlar onlara xüsusi mövzular üzərində qrammatik biliklərini yoxlamağa imkan verir. Bu cür proqramlar öyrənənlərin inkişafını izləyir. Tələbələr sadəcə tabletə toxunmaqla öz suallarına cavab tapa bilirlər. Best College Online proqramı ingilis dili öyrənən öyrənənlər üçün 16 proqram təklif edir. Bu proqramlar sözlərin düzgün tələffüz şəklinə diqqət yetirir. Şagirdlər həmçinin mobil telefonda ingilis dilində olan Scrabble və Boggle kimi oyunlar oynaya bilərlər.

***Digital Field Trips.*** Tələbələr ingilis dilini praktiki şəkildə öyrənməklə informasiya əldə edirlər. Amma Field Trips proqramından istifadə onların büdcəsinə uyğun deyil. Digital field trips proqramı yeni məlumatlar almaq üçün öyrənənləri ausentik yollarla təmin edir. Tələbələr via 4 H Virtual Farm saytına daxil olmaqla əyləncəli şəkildə ingilis dilində yeni sözlər öyrənə bilərlər. İnternetdə istənilən mövzunu ingilis dilində virtual şəkildə öyrənmək üçün çoxlu seçimlər var.

***Podcast.*** Tələbələr podcastlara qulaq asmaqla özlərini daha yaxşı inkişaf etdirə bilərlər. Onlar həmçinin podcastlar yaratmaqla öz danışıq qabiliyyətlərini yoxlaya bilərlər. ‘’İTunes” yükləməklə müəllimlər müxtəlif mövzular üzrə yüzlərlə podcastla ödənişsiz şəkildə əlaqə yarada bilər. İnternetdə çoxsaylı podcastlar mövcuddur. Kompüterin köməyi ilə tələbələr ingilis dilində məruzələr və prezentasiyalar hazırlaya bilərlər. Video podcastlarından istifadə onlar üçün ən gözəl seçimdir.

***Onlayn oyunlar.*** Tələbələr kompüter və ya mobil qurğularda oyun oynayaraq qrammatik biliklərə sahib olurlar. Funbrain proqramı öyrənənlər üçün dərsdə əlaqəli oyunlar və kitablar təqdim edir. StarFall proqramı tələbələr ingilis ədəbiyyatı üzrə biliyini artırmaq üçün müxtəlif cür oyunlar təklif edir. Scrabble and Boggle kimi oyunlar istənilən yaşda öyrənənlər üçün maraqlıdır. Bu cür oyunlar dərs müddətində ağ lövhələrdə proyektor vasitəsilə nümayiş etdirilə bilər. Həm müstəqil olaraq, həm də müəllimin vasitəsilə ilə dili mükəmməlləşdirmək olar.

**Google Drive.** Google Disk Word, Powerpoint və Excelin Googleda quraşdırılmış versiyası olub ödənişsiz onlayn yaddaşda saxlama qurğusudur. Bu qurğu tələbələrə ödənişsiz şəkildə ingilis dilində məqalələr yazmağa imkan verir. Google hesabı ilə daxil olaraq şagirdlər məqalələri müxtəlif yerlərdən hər hansı bir kompüterə daxil edib redaktə edə bilərlər. Onlar hazırladıqları məqalələri digər şagirdlərlə bölüşə bilər və hətta birgə, əməkdaşlı şəkildə işləyə bilərlər. Tələbələr birgə işləyərkən məqaləni müəllimlərlə müzakirə edib rəylər ala bilərlər.

**Edmodo.** Bu vasitə tələbələr, müəllimlər üçün sosial öyrənmə platformasıdır. Edmodo proqramının formatı Facebook proqramının formatına çox bənzəyir. Facebook proqramından fərqli olaraq o müəllim tərəfindən tamamilə nəzarətdədir və təhsil məqsədləri üçün nəzərdə tutulmuşdur. O bəzən "Fakebook" kimi adlandırılır. Bu vasitə tələbələr ingilis dilində bir-biriləri ilə qarşılıqlı əlaqə qurmağa icazə verir. Edmodo

proqramında həm müəllimlərin, həm də tələbələrin sənədləri saxlaya biləcəyi və istədikləri zamanda digərləri ilə bölüşə biləcəyi bir kitabxana var. Müəllimlər Edmodo proqramından istifadə etməklə tələbələri müstəqil fəaliyyət göstərməyə şərait yarada bilər. Bu kimi məsələlər tələbələrin ingilis dilini müstəqil öyrənmələrinə, onların dili daha asan yolla mənimsəmələrinə kömək edə bilər. Həmçinin Edmodo vasitəsilə ingilis dili dərsi üçün həftəlik yoxlama testləri tərtib etmək olar. Edmodo birbaşa olaraq tələbələr nəticələrini müəyyən etməyə də kömək edir.

**Screen casting.** Screen casting proqramında kompüterinizin ekran şəklini çəkməyə və bunu edərkən səsi yazmağa imkan verən bir vasitə var. Bu proqramda hər şeyi izah edən iki ədəd ScreenR mövcuddur. Onlardan istifadə ödənişsizdir. Müəllimlər kompüterin ekran şəklini çəkə və hətta səslərini də yerləşdirə bilərlər. Bunlar bir yerə toplandığı zaman müəllimlər artıq ingilis dilində videolardan ibarət bir sisteminə sahib olurlar.

Bu vasitədən istifadənin əsas məqsədi tələbələrin mövzuları təkrar etməsinə, ingilis dilinin müstəqil şəkildə öyrənməsinə kömək etmək üçün qısa təlimat videoları yaratmaqdır. Müəllim müxtəlif mövzular haqqında ingilis dilində kliplər çəkə bilər və ya şagirdlərdən komanda şəklində işləyərək ingilis dilinin müxtəlif yazı üslublarını əks etdirən kliplər hazırlamalarını tələb edə bilər. Müəllim şagirdləri dərsə cəlb etmək üçün onlardan şeirlərin izahı haqqında ingiliscə qısa videolar hazırlamalarını istəyə bilər.

**You Tube.** Screencast proqramı vasitəsi ilə ingilis dilində hazırlanan videoları YouTube kanalında yerləşdirmək mümkündür. Müəllimlər videoları You tube hesabında paylaşa bilər. Bunda əlavə çəkilən videoları mövzulara uyğun olaraq qruplaşdırmaqla kanalda pleylist yarada bilər. Bu cür pleylistlər onlara videoları asan şəkildə izləmələrinə şərait yaradır. Əgər müəllim videolar yaratmaq marağında deyilsə, o zaman dərs mövzuları ilə əlaqəli olan videoların siyahısını hazırlaya bilər. Təlim zamanı təşkil edilən dərsləri daha maraqlı etmək üçün ingilis dilində mif və əfsanələrdən ibarət pleylist yaratmaq olar. Videolar tələbələri mövzudan daha çox faydalanmalarına kömək edəcək və onları mövzu ətrafında müstəqil olaraq araşdırma etməyə həvəsləndirəcək.

**Blogging.** İngilis dilinin tədrisi üçün bir çox faydalı bloq platformaları var. Wordpress və Blogger ən məşhur bloqlardır. Tələbələr ingilis dilində öz bloqunu yaratmaqla və rəqəmsal portfellər istifadə etməklə yaxşı işlər görə bilərlər. Həqiqətən də auditoriyadan, eləcə də həmyaşıdlardan, valideynlərdən və müəllimlərdən ingilis dilində məlumatlar əldə etmək inkişaf üçün böyük imkandır. İngilis dilinin tədrisi zamanı bloqlardan dərslərin qeydə alınması üçün istifadə olunur. Əgər tələbə dərsdə iştirak edə bilmirsə, bloq vasitəsi ilə dərsləri izləyə bilər.

Hazırda ingilis dilinin tədrisi metodikasında və ingilis dili dərsliklərində istifadə olunan texnologiyaların çeşidi çox fərqli məzmunda olması ondan düzgün istifadə müəyyən qədər işi asanlaşdırır və istər müəllim, istərsə də öyrənənin ingilis dilinin tədrisində müstəqil işlərin təşkilində İKT və multimedia vasitələrindən istifadə bacarığını mükəmməl formalaşdırılmasına kömək ola bilər. Texnoloji vasitələrdən düzgün istifadə müstəqil işin təşkilində məqsədin uyğun və düzgün proqram seçimi olduqca vacibdir. Məlumdur ki, texnologiyalardan istifadə ingilis dilinin tədrisini və mövzuların məzmununu müstəqil şəkildə asan qavramağa kömək edir.

Rəqəmsal dünyanın iştirakçıları sayılan bu günkü öyrənənlər artıq elektron cəmiyyətin üzvləridir və qlobal ünsiyyət vasitəsi kimi ingilis dilini daha çevik və asan şəkildə öyrənməyə cəhd göstərirlər. İngilis dilinin öyrənilməsində işin müstəqil təşkili kompüterlərin köməyi ilə daha səmərəlidir. Müəllimlər tələbələri passiv məlumat alıcılarından tədrisin fəal iştirakçılarına çevirmək üçün belə potensiala malik olan ən son texnologiyalardan istifadə etməlidirlər. Bu baxımdan ingilis dilinin tədrisində müstəqil işin təşkili zamanı İKT və multimedia vasitələrilə tətbiqlərinin axtarışı və öyrənilməsi əvəzedilməzdir.

Bugünkü ingilis dili müəllimi günümüzdə həqiqətən adekvat olan yeni bir təhsilin keyfiyyətinə nail olmaq üçün İKT-ni idarə etməklə yanaşı, öyrənmə prosesinin funksiyalarının əlaqələndirilməsinə nə qədər yaxınlaşdığını da anlayır, ənənəvi olaraq rəhbər və nəzarət funksiyaları tədricən köçürmə və sistemləşdirmə funksiyaları ilə əvəz olunur. Müasir texnologiyalar vasitəsilə ingilis dilinin ünsiyyətdə öyrənilməsinə daha daha az vaxt sərf edilir. Buna görə tələbələrin daha yaxşı nəticələr üzrə produktiv fəaliy-

yətində keyfiyyətin əldə olunmasına öncədən inam yaranır. İngilis dilinin texnoloji vasitələrlə tədrisi dilin kontekstual-situativ təbiətini açır və funksional xarakteri üzrə yeni bir dil qabiliyyəti qazanılır, konseptual şəkildə dilin bütün aspektlərinin inkişafı, akademik bilik və bacarıqlar praktiki yolla zənginləşdirilir.

Beləliklə, ingilis dilinin müasir dövrümüzdə ən müasir texnologiyalar əsasında tədrisi tələbələrin xarici dilli öyrənməyə olan maraqlarını daha da artırar, onları həvəsdən düşməyə qoymaz, dərsdən əlavə evdə də kompüter, internet vasitəsilə müstəqil işin aparılması ilə dili daha tez mənimsəyər, gələcəkdə də bu dili öyrənməyə və daha da təkmilləşdirməyə çalışmasına səbəb olar.

**Problemin aktuallığı.** İngilis dilinin tədrisində tələbələrin müstəqil işlərinin təşkilində İKT və multimedia vasitələrindən istifadə aktuallığı ilə seçilir.

**Problemin yeniliyi.** İngilis dilinin tədrisində tələbələrin müstəqil işlərinin təşkilində İKT və multimedia vasitələrindən istifadə diqqət mərkəzinə gətirilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılarda maraq doğuracaqdır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası Ümumtəhsil məktəbləri üçün xarici dil fənni üzrə 'təhsil proqramı (kurikulumu), 2010, iyun
2. İmamquliyeva G.F. Ümumtəhsil məktəblərinin ingilis dili dərslərində yeni təlim texnologiyalarının istifadə imkanı və yolları: Ped.ü.fəls.dok. ... dis. Bakı, 2009, 144 s.
3. Kazdal V. İngilis dilinin tədrisində kommunikativ yanaşma və onun tətbiqinə təsir göstərən amillər: Ped.ü.fəl.dok.... dis., Bakı, 2006, 144 s.
4. Şirəliyeva G.X., Dil fakültələrinin aşağı kurslarında ingilis dilinin qrammatikasının kommunikativyönlü tədrisi. Bakı: Mütərcim, 2014, 140 s.
5. Гуссйнзаде Г.Дж., Лингво-дидактический анализ речевой коммуникации на английском языке: Дис. ... док. пед. наук. Баку, 2004, 469 с.
6. Исмаилова Д.А. Компетентность преподавателя иностранного языка. Современные проблемы обучения языкам в высшей школе, X Межвузовская научно-практическая конференция. Баку, 2014, с.263-266с.
7. Saricoban. The teaching of listening. The Internet TESL Journal, 5 (12). 1999
8. Sharma, P. Controversies in using technology in language teaching.
9. Ybarra, R., & Green T. Using technology to help ESL/EFL students develop language skills. The Internet TESL Journal, 9(3). 2003
10. .https://danovie.ru/pedagogicheskie-usloviya-organizacii-samostoyatelenoj-raboti-u.html?page=5
11. http://www.portalspo.ru/journal/index.php/zhurnaly
12. https://studbooks.net/1870465/pedagogika/didakticheskie_printsipy_organizatsii_samostoyatelnoy_raboty_uchaschihsya

**E-mail**: fira_350@mail.ru

**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov**,
*ped.ü.fəls.dok., dos.* **R.A. Salahov**

**Redaksiyaya daxil olub:**10.03.2021